● Cəsur oğullar

# "Vətən qarşısında övladlıq borcumu yerinə yetirdim"

**27** sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Goranboy rayonunun Tatarlı kəndində dünyaya göz açmış Məmmədli İsmayıl Vilayət oğlu "N" hərbi hissəsində əsgər idi. Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirirdi. Ömrünün 19-cu ilini yaşayan İsmayıl əyninə əsgər forması geyindiyi ilk günlərdən silahların sirlərini dərindən öyrənir, daim döyüş bacarığını artırırdı. 44 günlük Vətən müharibəsi başlayandan bir müddət sonra onları cəbhə bölgəsinə, erməni işğalçılarına qarşı döyüşlərə göndərdilər.

İsmayıl Məmmədlinin döyüş yolu oktyabr ayının əvvəllərində Füzuli rayonundan başladı. Elə ilk günlərdən döyüşlərə atılan İsmayıl müharibənin sonuna qədər erməni işğalçılarına qarşı cəsarətlə vuruşdu. Əsgər kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldi. Döyüşün ən qızğın analarında şəhidlərin qisasını almağı, yurdumuzu yağı tapdağından azad etməyi düşündü. Düşməni torpaqlarımızdan qovduqca İsmayıl daha da həvəslə vuruşurdu. Qarabağın işğaldan azad olunmasına günlər qaldığını düşünürdü.

Döyüşlərdə göstərdiyi hünər və rəşadətə görə Məmmədli İsmayıl Vilayət oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Laçının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb.

İsmayıl Məmmədli 7 oktyabr 2021-ci ildə ordu sıralarından qalib ölkənin qalib əsgəri kimi tərxis olunub. Müharibənin başa çatmasından dörd ilə yaxın vaxt keçməsinə baxmayaraq, o iştirakçısı olduğu döyüşləri indiki kimi xatırlayır. İsmayıl həmin günlərdən söz açaraq dedi ki, 11 oktyabr 2020-ci ildə onları Füzuli rayonu uğrunda gedən döyüşlərə cəlb etdilər: "Qarabağın azadlığı uğrunda vuruşmaq uşaqlıq istəyim idi. Artıq istəyimə çatmışdım. Əldə silah torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşurdum. Hərbi xidmətə altı ay əvvəl çağırılmışdım. Ötən müddət ərzində keçirilən təlim-məşqlərdə kifayət qədər döyüş təcrübəsi qazanmışdım. Silahlardan bacarıqla



istifadə etməyin sirlərini yaxşı bilirdim. Ona görə də mənim üçün döyüş çətin deyildi. Ətrafa yayılan atəş səslərindən qulaq tutulurdu. Əlverişli mövqedə yerləşən erməni işğalçıları geri çəkilmək istəmirdilər. Heç komandanlıq da bir anlıq olsun hücumları dayandırmırdı. Bizim işimiz haqq işi idi. Çünki biz doğma Qarabağımızın azadlığı uğrunda vuruşurduq. Zəfər qazanacağımıza əmin idik. İşğalçıların üzərinə qollarımıza qüvvət verən bu əminlik hissi ilə gedirdik. Gərgin döyüşlərdən sonra Füzuli rayonu erməni işğalçılarından azad olundu. Həmin gün, həmin an sevincimiz yerə-göyə sığmırdı. Qəsbkarlar qarşımızda dayana bilməyib geri çəkildikcə, biz üzü Qarabağa doğru inamla addımlayırdıq".

Keçmiş döyüşçü sözünə davam edərək dedi ki, Füzuli rayonu erməni işğalından azad olunduqdan sonra bölüyü Xocavənd istiqamətinə göndərilib: "Düşmən bu bölgədə də ciddi müqavimət göstərir, geri çəkilmək istəmirdi. Hər gün ordumuzun yeni zəfərlərini, yeni qələbələrini eşidirdik. Sevincimizin həddi-hüdudu yox idi. Ən çox sevindiyim gün isə musiqi beşiyimiz Şuşanın azad olunduğunu eşidəndə oldu. Artıq bütün istiqamətlərdə düşmən geri çəkilməyə başlamışdı. Biz də hər gün qəsbkarları qova-qova irəliləyirdik. Noyabr ayının 10-da düşmən məğlub oldu. Döyüşlər dayanandan sonra bizi Laçın rayonu istiqamətinə göndərdilər. Xidmətimin sonuna qədər bu gözəl diyarda qulluq etdim. Döyüşlər başa çatsa da, düşmən sakit dayanmırdı. Tez-tez mövqelərimiz istiqamətinə təxribat qrupları göndərirdi. Biz də onları vaxtında aşkarlayıb məhv edirdik. Qürur hissləri keçirirəm ki, Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşam. Bu mənim Vətən qarşısındakı övladlıq borcum, müqəddəs vəzifəm idi. Sevinirəm ki, mən bu borcu şərəf və ləyaqətlə yerinə yetirdim".

Babalarımız oğulların Vətəni qorumaq üçün doğulduğunu deyiblər. Bu sözün həqiqət olduğunu biz İkinci Qarabağ müharibəsində bir daha gördük. Qarabağın azadlığı uğrunda döyüşlər başlayan kimi yüzlərlə İsmayıl kimi gənc oğullar silaha sarılaraq yurdumuzun müdafiəsinə atıldılar. Onlar döyüşlərdən xalqımızı sevindirən zəfərlə, qələbəylə döndülər. Vətən uğrunda döyüşən oğulların qəhrəmanlığı heç vaxt unudulmayacaq, onlar gələcək nəsillər üçün örnək yeri olacaqlar. Vətən qarşısındakı övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirənlərin adı həmişə uca tutulacaq.

***Vahid MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 8 avqust (№ 167).- S.8.